1.
3 №-li dişli çarx 21 dövr etdiyi zaman 2 №-li dişli çarx neçə dövr edir?




A) 24
B) 16
C) 56
D) 8/7
E) 7/8

2. Kürəciklər eyni vaxtda göstərilən istiqamətdə eyni sürətlə bərabərsürətli hərəkətə başlayır, ştrixlərlə əlaqəli xəttə çatan kimi mütləq elastik toqquşma baş verir və onlar həmin sürətlə geri qayıdırlar. Bu hal növbəti toqquşmalarda da təkrarlanır. Kürəciklərin mərkəzləri bir saniyə ərzində bir xətdən qonşu xəttin üzərinə keçir.
Hərəkətə başlayandan ən azı neçə saniyə sonra bütün kürəciklərin mərkəzləri ikinci dəfə 3-cü xəttin üstündə olacaqdır?




A) 22
B) 20
C) 18
D) 24
E) 26

3. 2020-ci ildə kosmosda  peyki olan ölkələrin peyklərinin sayını göstərən diaqramlardan istifadə etməklə tapşırığı yerinə yetirin.




Hər birinin peyklərinin sayı bütün peyklərin sayının 7-16%-i aralığında olan ölkələr hansılardır?

A) Rusiya və Çin

B) Böyük Britaniya və Rusiya

C) Kanada və Hindistan

D) Çin və ABŞ

E) Yaponiya və Böyük Britaniya

4. Kvadratşəkilli xananın sahəsinin 1 sahə vahidinə bərabər olduğunu bilərək, qalın xətlə sərhədlənmiş fiqurun sahəsinin neçə sahə vahidinə bərabər olduğunu müəyyənləşdirin.



A) 24
B) 18
C) 22
D) 20
E) 26

5. “Gizlənmiş” (görünməyən) paralelepipedin olmadığını və bütün paralelepipedlərin eyni ölçülü olduğunu nəzərə alaraq onların sayını müəyyən edin.



A) 19
B) 18
C) 20
D) 17
E) 16

6. Bir gün işə gələrkən ictimai nəqliyyatda sərnişinlərdən birinin kobudluğuna etiraz olaraq onunla ciddi mübahisə etdiyinizə görə gərginlik yaşayırsınız. İşə çatanda bu barədə bölmə rəhbərinizə məlumat verərək bunu nəzərə almağı xahiş edirsiniz. Buna baxmayaraq, o sizə təcili tapşırıq verir. Tapşırığı iş gününün sonuna kimi icra etməyin vacib olduğu bildirilir.

Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?

A) Gərgin olduğumu əsas gətirərək rəhbərliyə bildirərdim ki, tapşırığı icra edərkən səhvlərə yol verəcəyimdən qorxuram və ona görə də xahiş edirəm ki, bu dəfə tapşırığı başqa bir əməkdaşa yönləndirsin.

B) Beynim şəxsi problemlərimlə məşğul olduğu üçün tapşırığa səthi yanaşardım. Fikirləşərdim ki, əməkdaşların psixoloji durumunu nəzərə almadığı üçün buraxılacaq səhvlərə görə məsuliyyət bölmə rəhbərinin üzərinə düşür.

C) Gərgin olduğumu hiss etdirərək rəhbərliyin məni tapşırıqdan azad etməsinə nail olmağa çalışardım.

D) Rəhbərliyi ittiham edərdim ki, mənim gərginliyimi nəzərə almır.

E) Diqqətimi toplayaraq tapşırığı icra edərdim.

7. Siz gənc valideynlərə xidmət göstərən mərkəzdə çalışırsınız. Müşahidə edirsiniz ki, müraciət üçün gəlmiş əliuşaqlı analar növbədə gözlədikləri müddətdə bir qədər əziyyət çəkirlər. Bu tip ziyarətçilərin sayı kifayət qədər çox olduğuna görə onları növbədənkənar qəbul etmək cəhdləri növbə gözləyən və tələsdiklərini iddia edən digər ziyarətçilərin narazılığına səbəb olur.

Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?

A) Digər vətəndaşların etirazına baxmayaraq, əliuşaqlı analara növbədənkənar xidmət göstərilməsini təklif edərdim.

B) Analara mərkəzə gələrkən körpələri yaxınlarının yanında qoymağı tövsiyə edərdim.

C) Fikirləşərdim ki, hər xırda məsələ ilə əlaqədar tədbir görməyə ehtiyac yoxdur, buna görə də diqqətimi daha vacib işlərə yönəldərdim.

D) Anaların növbə gözlədiyi müddətdə körpələrin əylənməsi üçün kiçik zona yaradılması barədə rəhbərliyə təklif verərdim.

E) Əliuşaqlı anaların növbədənkənar qəbul edilməsinə etiraz edən valideynləri bu davranışa görə utandırmağa çalışardım.

8. İşdə buraxdığınız kobud səhvə görə bölmə rəhbəriniz sizə haqlı irad tutur. Bununla yanaşı əvvəlki xidmətləriniz nəzərə alınaraq sizə töhmət elan ***edilmir***, lakin bir daha belə hal təkrarlanarsa, töhmət veriləcəyi bildirilir.

Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?

A) Nisbətən nüfuzlu həmkarlarımdan xahiş edərdim ki, bölmə rəhbərinin mənə münasibətini yumşaltmağa çalışsınlar.

B) Bu günə kimi xidmətlərim sayəsində formalaşmış müsbət reputasiyamdan istifadə etməklə yuxarı rəhbərliklə danışaraq gələcəkdə verilə biləcək töhmətdən özümü sığortalayardım.

C) Səhvimi anladığımı bildirərdim. Bundan sonra işimdə daha diqqətli olacağıma rəhbərliyi əmin edərdim.

D) İş prosesində hər hansı səhvin buraxılmasının normal olduğunu bildirərdim. Gələcəkdə də bu cür səhvlərin mümkün ola biləcəyini bildirərək bölmə rəhbərinin məsələyə anlayışla yanaşmasını xahiş edərdim.

E) Bölmə rəhbərinin mənə qarşı münasibətini yumşaltmaq üçün bundan sonra onunla daha tez-tez məsləhətləşərdim.

9. Həmkarınız iş vaxtı həkim qəbuluna getmək üçün ofisdən çıxmalıdır. O sizə rəhbərlikdən 2 saatlıq icazə aldığını və qayıdacağını deyir. Lakin günün sonuna qədər işə qayıtmır və sizə zəng vurub səbəbini bildirmir.

Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?

A) İki saat keçdikdən sonra ona gələn zənglərə cavab verməzdim

B) Bundan sonra onunla məsafə saxlayardım

C) Növbəti gün ondan nə baş verdiyini soruşardım

D) Ondan mənim əvəzimə növbəyə qalmağı tələb edərdim

E) Rəhbərliyə şikayət edərdim

10. İşlədiyiniz istehsal müəssisəsində zay (brak) hesab edilən məmulatlar təkrar emal olunmaq üçün işarələnərək xüsusi bir yerə toplanılır. Həmkarınızın həmin məmulatlardan öz şkafına yığdığının və onların üzərindəki nişanları silərək satdığının şahidi olursunuz.

Bu vəziyyətdə atıla biləcək ən səmərəli addım nə olar?

A) Onun bu davranışına məhəl qoymazdım

B) Yerli icra hakimiyyət orqanlarına məlumat verərdim

C) Onunla əməkdaşlıq edərdim

D) Rəhbərliyə bu barədə dərhal məlumat verərdim

E) Digər həmkarlarla bu barədə danışardım